# ÖDƏNİŞ HESABI VƏ ÖDƏNİŞ KARTI XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİNƏ DAİR ÜMUMİ ŞƏRTLƏR

*Azərbaycan Respublikasınnın Mülki Məcəlləsi, normativ hüquqi aktları, Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ xarakterli aktları, "Fərdi məlumatlar haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" (ƏL/TMM), "Banklar haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunlarının, "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar"ı ("MUT Qaydaları") tələbləri bu şərtlər üzrə tətbiq edilməli hüquq münasibətlərinə şamil edilir.*

*Bu Ümumi Şərtlər (bundan sonra – Şərtlər) "Tərəflər" arasında bağlanacaq Müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilir.*

*"Bank" və "Müştəri" arasında bu şərtlərin müddəalarının qəbul edilməsinə dair Müqavilə imzalandığı andan etibarən Müştəri bu şərtlərin müddəalarını tam və qeyd-şərtsiz qəbul etmiş və bunlarla razı olduğunu bildirmiş (aksept etmiş) olur.*

## 1. Anlayışlar

**Bank -** Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının 175 saylı, 06 yanvar 1994-cü il tarixli lisenziyası və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, hüquqi ünvanı AZ1110, Bakı şəhəri, Nərimanov rayonu, akademik Həsən Əliyev küçəsi, 131 "A" olan "Premium Bank" Açıq Səhmdar Cəmiyyəti;

**Müştəri** - bu Şərtlər ilə müəyyən edilmiş qaydada ödəniş/kart hesabının açılması üçün Bankla Müqavilə bağlayan fiziki şəxs olan ödəniş xidməti istifadəçisi;

**Tərəf/Tərəflər** – "Bank" və "Müştəri" ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlanır;

**İdentifikasiya Məlumatları** – "Müştəri"nin hüquqi sənədləri, şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi və (və ya) fərdi identifikasiya nömrəsi, mobil nömrəsi, elektron poçt ünvanı, bank əməliyyatlarının həyata keçirilməsi üçün nəzərdə tutulmuş, "Müştəri"nin istifadəsində olan fərdi istifadəçi adı (login), parol (password), giriş kodu,təhlükəsizlik şifrəsi, təsdiq SMS şifrəsi, ödəniş kartının ŞEN-i, qanunvericiliklə nəzərdə tutulmuş elektron imza və "Müştəri"ni eyniləşdirməyə imkan verən digər bu kimi məlumatlar nəzərdə tutulur. İdentifikasiya məlumatları Müştərinin öz əl imzasının analoqu kimi qəbul olunur.

**Ödəniş hesabı** – ödəniş əməliyyatlarının aparılması üçün müştəriyə açılan hesab;

**Ödəniş Kartı** – "Müştəri" tərəfindən nağdsız qaydada ödənişlərin həyata keçirilməsi, nağd pul vəsaitlərinin əldə edilməsi üçün istifadə olunan ödəniş aləti;

**Ödəniş Aləti –** "Müştəri" tərəfindən ödəniş sərəncamının verilməsi məqsədilə istifadə olunan və "Bank"la razılaşdırılmış hər hansı bir fərdiləşdirilmiş alət və (və ya) prosedurlar toplusu;

**Virtual Kart** - fiziki çap edilməyən, mobil tətbiq vasitəsilə "Müştəri" tərəfindən elektron imzadan istifadə etməklə sifariş edilən, nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən kart əsaslı ödəniş aləti;

**Kart Hesabı** - kart vasitəsilə həyata keçirilən əməliyyatların uçotunun aparılması üçün açılan ödəniş hesabı (bu hesab vasitəsilə ödəniş tapşırıqları verilmir, yalnız elektron əməliyyatlar üçün istifadə edilə bilər);

**Əmək haqqı kartı (salary card)** – yalnız fərdi sahibkarın və ya hüquqi şəxsin E-gov sistemində işçi kimi qeyd edilən əməkdaşları üçün təqdim edilən ödəniş kartı;
**Ödəniş Sərəncamı** – ödəniş əməliyyatının icrası üçün “Müştəri” tərəfindən “Bank”a verilən tapşırıq;
**Bankomat (ATM) -** Ödənişlərin aparılması, nağd pul vəsaitinin verilməsi və qəbulu, habelə digər bank xidmətlərindən istifadə edilməsi üçün nəzərdə tutulmuş proqram-texniki kompleks;
**Kartın Bloklaşdırılması -** ödəniş kartı vasitəsilə əməliyyatların həyata keçirilməsinin dayandırılması;
**Əlavə Kart -** “Bank” tərəfindən verilən, “Müştəri”nin “Bank”dakı kart hesabına bağlı olan və ona müəyyən edilmiş xərc limiti daxilində ödəniş kartı ilə yanaşı işləmə qabiliyyəti və onunla eyni funksiyalara malik olan kart;
**ŞEN Kod** - “Müştəri”yə (və ya onun tərəfindən vəkil edilmiş şəxsə) təqdim edilən və ya ATM, SMS vasitəsilə təyin edilən “Müştəri”nin tanınmasında istifadə olunan gizli şifrə;
**Overdraft** - Hesabda olan qalıq vəsaitdən artıq miqdarda vəsaitin xərclənməsi;
**MKR** – Mərkəziləşdirilmiş Kredit Reyestri;
**KB** – Kredit Bürosu;
**Müqavilə -** “Bank” ilə “Müştəri” arasında bağlanılan «Ödəniş hesabı və ödəniş kartı xidmətlərinin göstərilməsinə dair Ümumi Şərtlər»in qəbul edilməsinə dair Müqavilə;
**Limit -** “Müştəri”nin müvafiq hesabları üzrə aparılan əməliyyatlara “Bank”ın tətbiq etdiyi gündəlik və/və ya aylıq məhdudiyyətin maksimum hədd;
**Yerli Kart Təşkilatı** (Prosessinq mərkəzi) - Kart vasitəsi ilə aparılmış əməliyyatlar haqqında məlumatların ötürülməsi, toplanması, emal və klirinqini həyata keçirən xidmət mərkəzi;
**Silinmə Günü** - ödəniş kartı vasitəsi ilə aparılmış əməliyyatlar üzrə hesablaşma məlumatlarının yerli kart təşkilatı tərəfindən göndərilmiş fayllar şəklində “Bank”ın proqram təminatına yükləndiyi gün;
**Təmassız Ödəniş** - daxilində radiotezlikli identifikator quraşdırılmış kartın “Müştəri” tərəfindən POS-terminala yaxınlaşdırılması ilə aparılan əməliyyat;
**Elektron Bank Xidməti** - identifikasiya məlumatlarından istifadə etməklə müvafiq əməliyyatların aparılması və/və ya müəyyən məlumatların verilməsi, ərizələrin emalı ilə bağlı internet, elektron poçt, mobil cihazlar və ya digər elektron avadanlıqlar vasitəsilə məsafədən “Bank”ın təklif etdiyi xidmət (hesablar və borclar haqqında məlumat, hesabdan köçürmələr, konvertasiya, digər xidmətlərin qoşulması, “Bank” tərəfindən qanunvericiliklə qadağan olunmayan formada məlumatların, bildirişlərin, xəbərdarlıqların göndərilməsi və sair) nəzərdə tutulur;
**Elektron Cihaz** - kompüter, telefon, mobil telefon, smartfon, ATM (bankomat - kartlarla nağd pulun verilməsi üçün istifadə olunan bank avtomatlarıdır), özünə xidmət (ödəniş) terminalları və bu məqsədlə istifadə edilə bilən istənilən digər elektron cihaz nəzərdə tutulur.
**Elektron İmza** - elektron xidmətdən istifadə edərkən qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiqetmə üsulu;
**Mobil Bankçılıq** – mobil qurğular vasitəsilə müəyyən bank xidmətlərindən istifadə imkanıdır. Proqrama çıxış istənilən mobil operatorların abonenti olan müştərilərə verilir.
**Sima İmza** - bulud, açıq açar və üztanıma texnologiyalarına əsaslanan yeni nəsil gücləndirilmiş rəqəmsal imzadır.
**Avtorizə Etmə -** ödəniş əməliyyatının həyata keçirilməsi üzrə “Müştəri”nin “Bank”a verdiyi razılıq;
**Avtorizə Edilməmək** - ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən andan gerigötürülməz hesab olunan sərəncamdan “Müştəri” tərəfindən edilmiş imtina (dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina nəticəsində “Müştəri”nin seçimindən asılı olaraq ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları;

**Autentifikasiya** – “Bank”a “Müştəri”nin kimliyini və ya kartın, o cümlədən “Müştəri”nin fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının istifadəsinin etibarlılığını yoxlamağa imkan verən prosedur;
**Elektron Sənəd** – elektron formada, o cümlədən mətn, səs, görüntü və ya audio-görüntü formasında saxlanılan kontent;
**Əməliyyat müddəti/Əməliyyat günü** – “Bank”ın əməliyyat saatları (www.premiumbank.az/az/service-network/ saytında dərc edilir);
**Veb səhifə** - “Bank”ın rəsmin internet səhifəsi www.premiumbank.az

**Tariflər və istinad üçün internet səhifənin keçid linkləri:**

1. **Fiziki şəxslərə göstərilən əməliyyatlara tariflər:** https://www.premiumbank.az/az/for-life/types-of-operations/tariffs
2. **Visa Infinite Miles üzrə tarif cədvəli:** https://www.premiumbank.az/az/for-life/miles-kartlar/infinite-tarif/
3. **Miles kartları üzrə tarif cədvəli:** https://www.premiumbank.az/az/for-life/miles-kartlar/tariffs-card-1/
4. **Plastik kartlar üzrə tariflər:** https://www.premiumbank.az/az/for-life/plastic-cards/tariffs-card/
5. **MC World Elite kartı üzrə tariflər:** https://www.premiumbank.az/az/for-life/plastic-cards/mc-world-elite-uzr-tarifl-r/
6. **Əmək haqqı və depozit kartı üzrə tariflər:** https://www.premiumbank.az/az/for-life/tariffs-card-1/

## 2. Ödəniş hesabına dair şərtlər

2.1. “Bank” “Müştəri”nin ərizəsi və tələb olunan digər sənədlər əsasında bu şərtlər, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankının müəyyən etdiyi normativ xarakterli aktlarına və bankdaxili qaydalara müvafiq olaraq hesab açır və “Müştəri” hesab üzrə əməliyyatlar aparır.

2.2. “Müştəri”nin vermiş olduğu bank hesablarının açılmasına dair ərizə, onda qeyd edilən valyutada bank hesablarının açılması üçün əsasdır.

2.3. “Müştəri”nin ərizəsi əsasında açılmış və gələcəkdə açılacaq bütün valyutalarda olan bank hesabları ilə əlaqədar “Bank” ilə “Müştəri” arasındakı münasibətlər bu şərtlər və müvafiq müqavilə ilə tənzimlənir. Bu şərtlərin qüvvəyə mindiyi tarixdən etibarən “Müştəri” ilə bağlanmış əvvəlki müqavilələrin bu şərtlərlə ziddiyyət təşkil edən müddəaları qüvvədən düşmüş hesab olunur.

2.4. Rezident müştəri tərəfindən hesab üzrə xarici valyutada, qeyri-rezident müştərinin isə milli və xarici valyutada əməliyyatları “Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları”na əsasən aparılır;

2.5. “Müştəri”nin hesabından silinmələrə əsas, qanunvericilikdə və bu şərtlərlə nəzərdə tutulmuş

hallar istisna olmaqla, onun təqdim etdiyi ödəniş sənədləridir.

2.6. Ödəniş sənədləri tərtib edildiyi gündən (tərtib edilmə günü nəzərə alınmadan) sonra 3 (üç) iş günü ərzində "Bank"a təqdim edilə bilər.

2.7. "Müştəri"nin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə qanunvericiliklə, "Bank" ilə "Müştəri" arasında bağlanılması nəzərdə tutulan müqavilə, o cümlədən bu şərtlərlə müəyyənləşdirilmiş hallarda icazə verilir.

2.8. "Bank" ilə "Müştəri" arasında hesabın kreditləşdirilməsi haqqında əlavə razılaşma yoxdursa, "Bank" "Müştəri"nin hesabı üzrə əməliyyatları hesabın qalığı çərçivəsində müəyyən olunmuş ardıcıllıq qaydasında aparır. Ödəniş sənədində göstərilən məbləğ "Müştəri"nin hesabındakı vəsait qalığından çoxdursa, "Bank" həmin ödəniş sənədini icra etmir.

2.9. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə hesabdan vəsaitin silinməsi "Müştəri"nin sərəncamlarının və hesabdan silinməyə dair digər sənədlərin daxil olduğu təqvim ardıcıllığı ilə həyata keçirilir.

2.10. Hesabdakı pul vəsaitinin məbləği "Müştəri"nin "Bank" qarşısında olan bütün tələbləri ödəməyə kifayət etmədikdə, hesabdan pul vəsaiti qanunvericiliklə nəzərdə tutulmuş ardıcıllıqla silinir. "Müştəri"nin bank hesabında pul vəsaiti olmadıqda "Bank" "Müştəri"nin razılığı ilə və qanunvericiliyin tələblərinə uyğun olaraq ona kredit verməklə (hesabın kreditləşdirilməsi) ödənişləri həyata keçirə bilər, bu zaman kreditdən istifadə qaydaları "Bank" ilə "Müştər" arasında bağlanacaq kredit müqaviləsinə əsasən tənzimlənəcəkdir.

2.11. "Bank" tərəfindən "Müştəri"nin ödəniş sənədləri qəbul edilərkən qanunvericilik ilə müəyyən edilmiş tələblərə uyğun yoxlanılır.

2.12. "Müştəri"nin hesabı üzrə sərəncam vermək hüququ yalnız "Bank"a təqdim edilmiş imza nümunəsi vərəqəsində qeyd edilmiş imza səlahiyyətinə malik olan şəxsə məxsusdur. İmza vərəqəsində birinci və ikinci imzaya malik iki və ya daha çox şəxsin imzası qeyd olunduqda, həmin imzalardan istifadə qaydası bu barədə imza vərəqəsində edilmiş qeydə əsasən aparılır (bu qayda məsafədən bank hesabının açılması zamanı tətbiq edilmir).

2.13. Sadələşdirilmiş və gücləndirilmiş müştəri uyğunluğu tədbirləri ƏL/TMM Qanununun, habelə "MUT Qaydaları"nın tələblərinə uyğun olaraq həyata keçirilir.

2.14. "Tərəflər" razılaşır ki, qanunvericilikdə nəzərdə tutulmuş hallarda "Müştəri"nin "Bank"da mövcud hesabları (hesab üzrə qalıq və aparılmış əməliyyatlar) barədə məlumatların müvafiq dövlət orqanlarına verilməsi ilə bağlı bildirişin, habelə digər hər hansı məlumatın (xəbərdarlıq) "Bank" tərəfindən hesab sahibinə məxsus və "Müştəri"nin elektron poçt ünvanına göndərilməsi "Tərəflər" arasında rəsmi məlumatlandırılma/çatdırılma hesab edilir və gələcəkdə sübut kimi qiymətləndiriləcəkdir.

2.15. Normativ aktlar, ödəniş sisteminə dair qaydalar, işgüzar dövriyyə adətləri, müvafiq ödəniş xidməti üzrə müəyyən edilmiş qaydalara uyğun olaraq imtina edilməmiş və geri götürülməmiş sərəncam "Bank" tərəfindən icra edilir.

2.16. Ödəniş sənədlərinin məzmunu və forması normativ aktlarda nəzərdə tutulmuş tələblərə uyğun olmalıdır.

2.17. "Müştəri" ödəniş əməliyyatının icrasından sonra qanunvericiliklə müəyyən edilmiş müddətdən gec olmayaraq hər hansı avtorizə edilməmiş və ya səhv icra olunmuş ödəniş əməliyyatı müəyyən etdikdə bu barədə "Bank"ı dərhal məlumatlandırmalıdır.

2.18. Ödəniş sərəncamları düzgün, avtorizə edilmiş qaydada verilməsi, pul vəsaitlərindən istifadə edilməsi, əməliyyatların həyata keçirilməsinə görə "Müştəri" məsuliyyət daşıyır.

2.19. "Müştəri" bu Şərtlər əsasında ona məxsus olmuş ödəniş hesabından istifadə, onun təhlükəsizliyinin mühafizəsi, o cümlədən bu Şərtlərdə və ya qanunvericiliklə müəyyən edimiş

digər hallarda “Bank”ı məlumatlandırılması üzrə öhdəlik daşıyır. “Müştəri”, ona “Bank” tərəfindən təqdim edilmiş hər hansı məlumatları üçüncü şəxslərə açıqlamamalı, təqdim etməməli, hər hansı təhlükəli hallar müşahidə edildikdə bununla bağlı dərhal “Bank”ı məlumatdırmalıdır.

2.20. “Müştəri” qüsursuz, qanunvericiliklə və işgüzar adətlərlə, o cümlədən bu Şərtlərlə müəyyən edilmiş qaydada ödəniş sərəncamı verdikdə, ödəniş əməliyyatı avtorizə edilmiş hesab olunur, “Bank” isə həmin sərəncamı icraya qəbul edir. “Bank” “Müştəri”nin hesabına daxil olmuş pul vəsaitini həmin əməliyyat günündən gec olmayaraq hesaba salır bu şərtlə ki, qanunla ayrı qayda nəzərdə tutulmasın. “Müştəri”nin sərəncamı ilə “Bank” “Müştəri”nin pul vəsaitini müvafiq ödəniş sərəncamının “Bank”a daxil olduğu günün ertəsi günündən gec olmayaraq verir və ya hesabdan köçürür, bu şərtlə ki, qanunla ayrı müddətlər nəzərdə tutulmasın. Bu müddət qeyri-iş gününə/saatlarına düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.

2.21. Ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən, müvafiq mobil tətbiq və digər informasiya resursları vasitəsilə ödəniş barədə yekun təsdiq bildirişi “Müştəri” tərəfindən verildikdən sonra həmin ödəniş sərəncamı gerigötürülməz hesab olunur. Dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina nəticəsində “Müştəri”nin seçimindən asılı olaraq ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları avtorizə edilməmiş hesab edilir və icra olunmur.

2.22. “Müştəri” bank əməliyyatlarının aparılmasına görə əməliyyat gününə “Bank”ın qüvvədə olan tariflərinə uyğun olaraq xidmət haqlarını ödəməlidir. “Müştəri” “Bank”ın tətbiq etdiyi xidmət haqları ilə veb səhifəyə keçid etməklə tanış ola bilər və həmin məlumatları əməliyyat aparmamışdan əvvəl mütəmadi olaraq yoxlamalıdır.

2.23. Əməliyyatın icrası ilə əlaqədar müxbir banklar tərəfindən tətbiq edilən hər hansı xidmət haqları eyni qaydada “Müştəri” tərəfindən “Bank”a ödənilməlidir.

2.24. Ödəniş sərəncamının icraya qəbul vaxtı, icrası və məlumatlandırma müddətləri, “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” AR Qanununun tələblərinə uyğun olaraq müəyyən edilmiş tələblər rəhbər tutulmaqla müəyyən edilir.

2.25. “Müştəri”nin Bankda olan cari hesabına həyata keçirilən mədaxil əməliyyatının valyutası həmin hesabın valyutasından fərqli valyutada olduqda, əməliyyatın icra edildiyi günə olan Bankın valyuta məzənnəsi və qüvvədə olan cari hesab üzrə tarif cədvəlinə uyğun şəkildə Bank tərəfindən müvafiq olaraq həmin hesabın valyutasına mübadilə olunaraq həyata keçirilir.

**Ödəniş hesabı üzrə “Tərəflər”in hüquq və vəzifələri:**

**«Bank»ın vəzifələri:**

2.26. Normativ hüquqi aktlara və “Bank”ın tələblərinə uyğun olaraq “Müştəri” tərəfindən təqdim edilmiş sənədlər əsasında hesab açmaq;

2.27. “Müştəri”yə hesablaşma-kassa xidmətləri göstərmək:

2.28. “Müştəri”nin hesabından çıxarışları ona təqdim etmək;

2.29. Qanunvericiliyinə uyğun olaraq “Müştəri”nin hesab üzrə verdiyi digər sərəncamlarını yerinə yetirmək;

2.30. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, bank sirrini təşkil edən məlumatları açıqlamamaq;

2.31. “Müştəri”nin sərəncamı əsasında dövrü ödənişləri həyata keçirmək;

2.32. Qanunvericiliklə və bu Şərtlərlə müəyyən edilmiş hallar istisna olmaqla, “Müştəri”nin sərəncamvermə hüququnu məhdudlaşdırmamaq;

2.33. Qanunvericiliyə və bu şərtlərə zidd olmayan digər vəzifələri yerinə yetirmək.

**«Bank»ın hüquqları:**

2.34.“Müştəri”nin, onun səlahiyyətli nümayəndəsinin bank hesabı açılması üçün təqdim etdiyi sənədlər “Bank”ın və qanunvericiliyin tələblərinə uyğun olmadıqda, habelə müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün olmadıqda bank hesabı üzrə əməliyyatları icra etməkdən imtina etmək;

2.35.“Müştəri”nin “Bank” qarşısında hər hansı bir icra olunmamış pul öhdəlikləri, habelə hesabındakı pul vəsaiti ilə aparılan əməliyyatlar üzrə ödənilməmiş xidmət haqqısı, həmçinin müxbir banklar vasitəsilə ödəniş tapşırığı icra edildikdə “Müştəri”nin ödənişi ilə əlaqədar “Bank”a ünvanlanan müvafiq sorğular müqabilində müxbir banklar tərəfindən tətbiq olunan ödənilməmiş xidmət haqları mövcud olduqda, “Müştəri”nin əlavə sərəncamı və razılığı olmadan akseptsiz qaydada onun bank hesabındakı pul vəsaitindən silmək;

2.36.“Müştəri”nin hesabında olan pul vəsaitinə dair “Müştəri”nin maneəsiz sərəncam vermək hüququna təminat verməklə (qanunla müəyyən edilmiş hallar istisna olmaqla) bu vəsaitdən istifadə etmək;

2.37.Qanunvericilikdə baş vermiş dəyişiklik və ya “Bank” tərəfindən “Müştəri” haqqında əlavə məlumat əldə etmək zərurəti yarandığı hallarda tələb olunan əlavə sənədlərin təqdim edilməsini “Müştəri”dən tələb etmək;

2.38.“Müştəri”nin ərizəsinə uyğun olaraq bu Şərtlərlə nəzərdə tutulmuş qaydada ona digər valyutalarda da bank hesabı açmaq;

2.39.Xidmətlərin göstərilməsinə dair tarifləri, xidmət haqları, limitləri, sığorta depoziti, ilkin ödənişin həcmi, köçürmə, mədaxil, məxaric əməliyyatlarına dair məhdudiyyətləri müstəqilmüəyyən etmək və onları birtərəfli qaydada dəyişmək;

2.40.“Müştəri” tərəfindən təqdim edilən sənədlərdə saxta məlumatlar aşkar edildikdə və ya saxta sənəd təqdim edildikdə, tələb olunan məlumatları təqdim etmədikdə tərəflər arasında bağlanmış müvafiq Müqaviləyə xitam vermək;

2.41.Qanunvericilikdə və “Bank”ın daxili tələbləri ilə nəzərdə tutulmuş hallarda “Müştəri”nin bank hesabı üzrə əməliyyatlarına limitlər tətbiq etmək;

2.42.Hər hansı əməliyyat səhvi nəticəsində “Müştəri”nin hesabına səhv mədaxil edilmiş vəsaiti birtərəfli qaydada həmin hesabdan silmək;

2.43.Azərbaycan Respublikasının hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə və sazişlərdən irəli gələn hallarda “Müştəri”dən onun pul axını, maliyyə mənbələri, həmçinin imza hüququ olan şəxslərin eyniləşdirilməsinə dair bütün məlumatların təqdim edilməsini tələb etmək;

2.44.Davamlı nəzarət tədbirlərinin tətbiqi nəticəsində uyğunsuzluqlar müəyyən edildikdə, gücləndirilmiş müştəri uyğunluğu tədbirləri üzrə ƏL/TMM Qanununu, MUT qaydaları, habelə qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatların təqdim edilməsini “Müştəri”dən tələb etmək;

2.45.“Müştəri”nin “Bank” qarşısında öhdəlikləri və ya müvafiq məhkəmə qərarı mövcud olduqda, habelə qanunvericiliklə müəyyən edilmiş digər hallarda “Müştəri”nin razılığı və sərəncamı olmadan onun hesabındakı pul vəsaitini silmək;

2.46.Qanunvericiliyə və bu şərtlərə zidd olmayan digər hüquqları həyata keçirmək.

**«Müştəri»nin vəzifələri:**

2.47.Hesabın açılması üçün qanunvericiliklə nəzərdə tutulan və “Bank” tərəfindən tələb edilən məlumat və müvafiq sənədləri “Bank”a təqdim etmək;

2.48.Qanunvericiliyə uyğun olaraq hesab üzrə nağd və nağdsız qaydada əməliyyatlar aparmaq;

2.49.Ödəniş sənədlərini qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edərək “Bank”a təqdim etmək;

2.50.Hesabda olan pul vəsaitindən ƏL/TMM Qanunu və MUT qaydaları da daxil olmaqla, mövcud qanunvericiliyə uyğun olaraq istifadə etmək;

2.51.“Bank”dan alınmış kredit məbləğini və kreditdən istifadəyə görə hesablanmış faizləri vaxtında geri qaytarmaq;

2.52.“Müştəri” uyğunluğu tədbirlərinin davamlı tətbiqi nəticəsində uyğunsuzluqlar müəyyən edildikdə, bunun səbəblərini açıqlayan məlumatları və onları təsdiq edən sənədləri “Bank”ın tələbi bildirildiyi andan etibarən 5 (beş) iş günü ərzində yazılı surətdə “Bank”a təqdim etmək;

2.53.“Bank” tərəfindən əlavə sənədlər tələb edildikdə, həmin sənədləri tələb olunan müddətdə “Bank”a təqdim etmək;

2.54.“Bank”a əvvəllər təqdim etmiş olduğu məlumatlarda hər hansı dəyişiklik olduqda, həmin dəyişiklik baş verdiyi andan etibarən “Bank”ı 3 (üç) iş günü ərzində bu dəyişiklikləri təsdiq edən sənədləri “Bank”a təqdim etmək - Əks halda, əvvəllər təqdim edilmiş rekvizitlər üzrə “Bank”ın “Müştəri”yə göndərdiyi bildirişlər “Müştəri” tərəfindən qəbul olunmuş hesab olunur;

2.55.Qanunvericilik, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə və sazişlərdən irəli gələn hallarda öz pul axını, maliyyə mənbələri, həmçinin imza hüququ olan şəxslərin eyniləşdirilməsinə dair məlumatları “Bank”a təqdim etmək;

2.56.Hesab üzrə icrası nəzərdə tutulan əməliyyatların təyinatı, güman edilən limitləri barədə “Bank”a məlumat vermək;

2.57.Hesabına yanlış daxil olma olduqda, bu barədə dərhal “Bank”a məlumat vermək və həmin məbləği geri qaytarmaq və ya hesabdan həmin məbləğin “Bank” tərəfindən birtərəfli qaydada silinməsini qəbul etmək və buna qarşı hər hansı etiraz irəli sürməmək;

2.58.“Müştəri” tərəfindən məlumatların təqdim edilməməsi və ya vaxtında təqdim edilməməsi nəticəsində “Bank”a dəyən ziyana görə maddi məsuliyyət daşımaq;

2.59.“Bank”ın qüvvədə olan Tarifləri ilə tanış olmaq və əməliyyat gününə qüvvədə olan tariflərə uyğun olaraq haqları ödəmək;

2.60.Qanunvericiliyə və bu şərtlərə zidd olmayan digər vəzifələri yerinə yetirmək.

**«Müştəri»nin hüquqları:**

2.61.Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bu Şərtlər əsasında açılmış hesabdan istifadə etmək;

2.62.Hesab üzrə aparılan əməliyyatlara dair və hesabda olan pul vəsaitinin qalığı barədə bu Şərtlərlə müəyyən edilmiş qaydada “Bank”dan məlumatların ona verilməsini tələb etmək;

2.63.Yeni bank hesabının açılması üçün “Bank”a ərizə ilə müraciət etmək;

2.64.Qanunvericiliyə və bu şərtlərə zidd olmayan digər hüquqları həyata keçirmək.

**Məsuliyyət:**

2.65.Xidmətlərin göstərilməsi (ödəniş tapşırıqlarının icrası və s. əməliyyatlar zamanı) “Bank”dan asılı olmayan səbəblərdən mümkün olmadıqda, həmçinin öz müxbir bankları və ya digər üçüncü şəxslər tərəfindən xidmətlər lazımi səviyyədə göstərilmədikdə (yəni ödənişin icrasının gecikdirilməsi və ya digər səbəblərdən məbləğlərin dondurulması hallarında) “Bank” məsuliyyət daşımır;

2.66.“Müştəri”nin verdiyi ödəniş sənədlərinə əsasən aparılmış əməliyyatların onun tərəfindən təqdim edilmiş saxta sənədlər üzrə həyata keçirildiyi aşkar edilərsə, aparılmış əməliyyatların

nəticələri üçün “Müştəri” tam məsuliyyət daşıyacaqdır. Bu halda “Bank” “Müştəri” və digər şəxslər/qurumlar qarşısında heç bir məsuliyyət daşımayacaq;
2.67.“Müştəri”nin özünə, rezidenti olduğu və ya hər hansı əlaqəsi olduğu ölkəyə Azərbaycan Respublikası, hər hansı digər dövlət və ya hər hansı Beynəlxalq Təşkilat tərəfindən sanksiya qoyulduqda, “Bank” “Müştəri”nin hesabındakı vəsaiti dondura, əməliyyatların aparılmasına məhdudiyyət qoya və digər hərəkətlər edə bilər.

## 3. Ödəniş kartına dair şərtlər

3.1. “Bank” “Müştəri”nin ərizəsi və tələb olunan digər sənədlər əsasında bu şərtlər, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankının müəyyən etdiyi normativ xarakterli aktlarına və bankdaxili qaydalara müvafiq olaraq kart hesabı açır, kart təqdim edir və “Müştəri” həmin kart üzrə əməliyyatlar aparır;
3.2. “Bank” açılmış kart hesabından istifadə etmək üçün “Müştəri”yə Kart verir. Kartla birlikdə “Müştəri”yə bağlı zərfdə olan ŞEN-kod təqdim edilir (miles və virtual kartlar üçün tətbiq edilmir). ŞEN-kod “Müştəri”nin imzasının analoqudur və ondan istifadə etməklə Kart üzrə aparılmış əməliyyatlar “Müştəri” tərəfindən aparılmış əməliyyatlar kimi qəbul edilir. Kartın və ŞEN-kodun üçüncü şəxslərə verilməsi qadağandır. Kart hesabının açılması və Kartın verilməsi üçün “Müştəri” mövcud tariflərə əsasən “Bank”a əvvəlcədən haqları ödəyir;
3.3. “Bank”, “Müştəri”yə verdiyi kartla yanaşı, onun müvafiq yazılı ərizəsi əsasında və haqqı ödənilməklə əlavə kart da verə bilər;
3.4. Bonus proqramları üzrə veriləcək əlavə kartların istifadəsi barədə məlumatlar veb səhifədə göstərilir.
3.5. Kartın və ya əlavə kartın istifadəsi ilə bağlı yaranan “Bank”ın hərəkət və ya hərəkətsizliyi ilə bağlı olmayan itkilərə və digər problemlərə görə məsuliyyət “Müştəri”nin üzərinə düşür.
3.6. Kart heç bir şəkildə üzərində qeyd edilən son istifadə tarixindən sonra istifadə edilə bilməz. Üzərində ay və il qeyd edilən Kartlar həmin ayın son gününə kimi aktivdir (bloklaşdırılma halları istisnadır). Kartın müddəti uzadılmadıqda hesabdakı pul vəsaitinin qalığı “Müştəri” tərəfindən geri alınmalıdır və ya vəsaitin köçürülməli olduğu yeni hesab Banka bildirilmədir.
3.7. “Müştəri” Kartın itirilməsi, oğurlanması, kart məlumatlarının üçüncü şəxslərə ötürülməsi və ya üzərində təhriflər edilməsi üçün məsuliyyət daşıyır.
3.8. Kart itdikdə və ya oğurlandıqda, “Bank”ın qaynar xəttinə 012 931, yerli kart təşkilatına (Tel: +994 12 598-46-97) və ya birbaşa “Bank”a (filiala) yaxınlaşaraq dərhal məlumat verilməlidir. “Müştəri” mobil və ya internet bankçılıq xidmətləri vasitəsilə də dərhal Kartı bloklaşdıraraq banka məlumat verə bilər. Bu barədə məlumatın “Bank”a daxil olduğu vaxta qədər kartla aparılan bütün əməliyyatlara görə məsuliyyəti “Müştəri” daşıyır.
3.9. “Müştəri” itirilmiş və ya oğurlanmış Kartın sonradan tapılması halında kartdan istifadə etməyəcəyini, həmin Kartı “Bank”a qaytaracağını, bu hallarla bağlı “Bank”ın çəkə biləcəyi bütün zərərləri, habelə itirilmiş kartın “Bank” tərəfindən yenilənməsi ilə bağlı bütün xərcləri ödəməyi öhdəsinə götürür.
3.10. “Müştəri” tərəfindən aparılmış əməliyyatlara görə xidmət haqları “Bank” tərəfindən qüvvədə olan tariflərə uyğun “Müştəri”nin bank hesablarındakı pul vəsaitlərindən akseptsiz qaydada silinir.
3.11. Ödəniş kartından istifadəsi üzrə təhlükəli olan ölkələrin siyahısı (beynəlxalq kart təşkilatları tərəfindən qəbul edilmiş “məsuliyyətin ötürülməsi qaydası”nın (liability shift rule) tətbiq olunmadığı ölkələr) müvafiq dövlət qurumunun rəsmi internet səhifəsində yerləşdirilir.

3.12. Kart “Bank” ın mülkiyyətidir və kartın istifadə müddəti bitdikdən sonra “Müştəri” onu “Bank”a qaytarmalıdır. Kart qaytarılmadığı halda, “Bank”ın birtərəfli qaydada həmin kartı bloklaşdırmaq və onun istifadəsini dayandırmaq hüququ vardır.
3.13. “Müştəri” tərəfindən kartın ŞEN kodu 3 (üç) dəfə düzgün yığılmadıqda kart emitent bank tərəfindən bloklaşdırılır. Bu halda “Müştəri” “Bank”la telefon vasitəsi ilə əlaqə saxlayaraq identifikasiya prosesini uğurla keçməklə, mobil tətbiq vasitəsilə və ya öz şəxsiyyətini təsdiq edən sənədlə “Bank”a müraciət etməklə və müvafiq haqqları ödəməklə kartın ŞEN kodunu bərpa edə bilər.
3.14. “Müştəri” kartın ŞEN kodunu unutduğu halda, “Bank”a müraciət edərək (qaynar xətt və ya banka yaxınlaşmaqla) və ya mobil tətbiq və ya bankomat vasitəsilə bankın qüvvədə olan daxili tarifləri ilə müəyyən olunan xidmət haqqını ödədikdən sonra yeni ŞEN kod təyin edilə bilər.
3.15. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin və normativ aktlarının tələblərinə riayət etməklə verilən, müvafiq ödəniş sistemi və ödəniş xidmətinə dair qaydalar, bankdaxili qaydalara uyğun olaraq, “Müştəri” tərəfindən təsdiq edilmiş əməliyyatın həyata keçirildikdən sonra “Müştəri” həmin əməliyyatlara görə tam məsuliyyət daşıyır.
3.16. Əməliyyatın icrası ilə əlaqədar müxbir banklar tərəfindən tətbiq edilən hər hansı xidmət haqları eyni qaydada “Müştəri” tərəfindən “Bank”a ödənilməlidir, əks halda “Bank” həmin haqların “Müştəri”nin hesablarından akseptsiz silmək hüququna malikdir.
3.17. Kart vasitəsilə kart hesabının valyutasından fərqli valyutalarda aparılan əməliyyat zamanı məbləğin bloklaşdırıldığı və hesabdan silindiyi (ödəniş tələbinin bank sisteminə daxil olduğu tarix) tarixlərdə valyuta məzənnəsindəki mümkün dəyişikliklər nəticəsində hesabdan faktiki silinən məbləğ bloklaşdırılmış məbləğlə eyni və ya fərqli ola bilər.
3.18. Kart ilə aparılan nağd və ya nağdsız əməliyyatın valyutası kart hesabının valyutasından fərqləndiyi halda məbləğin konvertasiyası:

- Əməliyyat bankın xidmət etdiyi qurğularda (bankomat, POS-Terminal, online ticarət) baş tutduğu təqdirdə “Bank” tərəfindən müəyyən edilmiş məzənnə və konvertasiya haqqı əsasında,
- Əməliyyat xarici ölkələrdəki qurğularda baş tutduğu təqdirdə beynəlxalq ödəniş sisteminin müəyyən etdiyi məzənnə və “Bank”ın konvertasiya haqqı əsasında,
- “Bank”ın ölkə daxilindəki xidmət etmədiyi qurğularda əməliyyat edildikdə “Bank” tərəfindən müəyyən edilmiş məzənnə və konvertasiya haqqı əsasında aparılır.

3.19. “Müştəri”, onun hesabına daxil olan pul vəsaitlərini, zərurət yarandıqda həmin tarixdə konvertasiya edilməli valyuta məzənnəsinə əsasən hesablanılmaqla, müvafiq qaydada əməliyyatların aparılmasına və bununla bağlı “Bank” tərəfindən xidmət haqlarının onun hesablarından akseptsiz qaydada silinməsinə əvvəlcədən öz razılığını bildirir. Fərqli valyutada ödəniş əməliyyatları edildikdə ödəniş yeri üzrə müvafiq olaraq həm beynəlxalq ödəniş sistemləri tərəfindən tətbiq edilən, həm də ölkədaxili valyuta məzənnəsi üzrə konvertasiya haqqı tutulmaqla icra edilir.
3.20. Kartdan istifadə etməklə əməliyyatların aparılmasında yaranmış hər hansı problem “Bank”ın sərəncamında olmayan (digər şəxslərin idarə etdiyi) məlumat-informasiya sistemlərinin fəaliyyəti ilə əlaqədardırsa, “Bank” bununla bağlı yaranacaq itki və zərərlərə görə “Müştəri” qarşısında məsuliyyət daşımır.
3.21. Kartdan istifadə etməklə həyata keçirilən əməliyyatlar üzrə hesablaşmalar müvafiq yerli və ya beynəlxalq kart təşkilatlarının qaydalarına və bu şərtlərə uyğun şəkildə aparılır.
3.22. “Müştəri” kart vasitəsilə əməliyyatların aparılması zamanı Azərbaycan Respublikasında mövcud valyuta rejimi tələblərinə riayət etməlidir.

3.23. “Müştəri” ona verilmiş kart, digər təhlükəsizlik məlumatlarının mühafizəsi, zərurət olduqda bankın məlumatlandırılması üzrə birbaşa məsuliyyət daşıyır. “Müştəri” təhlükəsizlik üçün ona

verilmiş məlumatları heç bir halda üçüncü şəxslərə açıqlamamalı, kartı, habelə digər təhlükəsizlik məlumatlarını üçüncü şəxslərə təqdim etməməli, hər hansı təhlükə şəraiti yarandıqda dərhal bu barədə bildiriş təqdim etməklə “Bank”ı məlumatdırmalıdır. Bildiriş alındıqdan sonra “Bank” dərhal kartı bloklaşdırır.

3.24. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun, o cümlədən müştəri uyğunluğuna dair digər normativ aktların tələblərinə əsasən “Bank” tərəfindən hesab üzrə birtərəfli qaydada əməliyyatların icrasının dayandırılması, bank hesablarındakı vəsaitlərin dondurulması, bank hesablarının bağlanması (ləğv edilməsi), kartla əməliyyatların aparılmasının məhdudlaşdırılması həyata keçirə bilər.

3.25. Bütün ödəniş əməliyyatlara görə “Müştəri” məsuliyyət daşıyır və ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən andan gerigötürülməz hesab olunur.

3.26. Normativ aktlar, ödəniş sisteminə dair qaydalar, işgüzar dövriyyə adətləri, müvafiq ödəniş xidməti üzrə müəyyən edilmiş qaydalara uyğun olaraq imtina edilməmiş və geri götürülməmiş sərəncam “Bank” tərəfindən icra edilir.

3.27. “Müştəri” əməliyyatı icra etməmişdən öncə “Bank” tərəfindən tətbiq edilən xidmət haqları ilə bankın rəsmi veb səhifəsində olan və şərtləin anlayışlar hissəsində istinad edilmiş linklərə keçid etməklə tanış olmalıdır. Bu bəndin tələblərinin yerinə yetirilməməsi görə “Müştəri” məsuliyyətlidir.

3.28. Xidmət haqları əməliyyat icra edilməmişdən öncə “Müştəri” tərəfindən ödənilməlidir, lakin kartda kifayət qədər vəsait olmadıqda ödəniş həyata keçirilmir.

3.29. “Bank” ödənilməyən xidmət haqlarını “Müştəri”nin sərəncamı və əlavə razılığı olmadan akseptsiz qaydada “Müştəri”nin bank hesabındakı pul vəsaitlərindən silmək hüququna malikdir.

3.30. “Müştəri” tərəfindən həyata keçirilən əməliyyatların icraya qəbul vaxtı, icrası və məlumatın verilməsi şərtləri qanunvericiliklə müəyyən edilmiş tələblər əsasında təmin edilir.

3.31. “Müştəri” tərəfindən kartdan istifadə olunmaqla aparılmış bütün əməliyyatlara görə “Müştəri” məsuliyyət daşıyır. Kart üzrə aparılmış əməliyyatlar “Müştəri” tərəfindən aparılmış əməliyyatlar kimi qəbul olunur.

3.32. Tətbiq edilən limitlər barədə veb səhifədə yerləşdirilməklə və ya digər rabitə kanalları vasitəsilə “Müştəri”nin məlumatlılığı təmin edilir.

3.33. Ödəniş kartı məqsədləri üçün açılmış ödəniş hesabı yalnız ödəniş kartı üzrə əməliyyatların aparılması məqsədilə istifadə edilir.

3.34. Ödəniş kartının istifadə müddəti bitdikdən sonra “Müştəri” onun adına açılmış ödəniş hesabından bu şərtlərin 2-ci hissəsində göstərilənlərə uyğun istifadə edə bilər.

3.35. ŞEN-kodun və kart məlumatlarının, token, login, parol, digər kodlar, eyniləşdirmə məlumatlarının, elektron imza, mobil nömrə, üçüncü şəxslər tərəfindən istifadəsi nəticəsində “Müştəri”yə dəymiş zərərə görə “Bank” məsuliyyət daşımır.

3.36. Kartdan istifadə zamanı bonusların, güzəşt və imtiyazların hesablanması qaydası, xidmət haqlarının məbləği, tutulma qaydası, əlavə kampaniyalar, güzəştlər, imtiyazlar, tariflər barədə “Bank” tərəfindən veb səhifəsində və ya digər davamlı daşıyıcılarda yerləşdirilən məlumatların “Müştəri” üçün əlçatanlığı təmin edilir, daim yeniliklər barədə “Müştəri” məlumatlandırır. “Müştəri”nin həmin məlumatlarla tanış olmaması barədə tələbləri, etirazları, yaranmış iddialara, itkilərə görə Bank məsuliyyət daşımır.

3.37. Kartla olan icazəsiz əməliyyatlardan vaxtında xəbərdar olmaq “Müştəri”nin birbaşa vəzifəsidir. SMS-məlumatlandırma, Mobil Bank və İnternet Bank xidmətlərindən istifadə etmək tövsiyə edilir. Hər hansı fraud, təhlükəli, qeyri-sağlam, “Müştəri”nin məlumatı olmayan, səlahiyyətli olmayan şəxs tərəfindən kartdan və ya kart hesabından istifadə, pulların qanunsuz

silinməsi, digər dələduz əməliyyatlar baş versə, kartı dərhal bloklaşdırmaq və araşdırılması üçün banka müraciət etmək, bu barədə bankı məlumatlandırmaq “Müştəri”nin birbaşa vəzifəsidir.
3.38. Kartlar vasitəsilə əməliyyatların aparılması, müvafiq Qaydalarla müəyyən edilmiş limit çərçivəsində, “Müştəri” tərəfindən ödəniş kartının təmassız oxuma xüsusiyyətinə malik olan POS-terminala yaxınlaşdırılması ilə həyata keçirilir. Bu kimi əməliyyatlar keçirildikdən sonra “Bank” tərəfindən geri qaytarma (Chargeback və sair) sorğusu qəbul və icra edilmir.
3.39. Əmək haqqı kartına pul vəsaitlərinin mədaxil əməliyyatı yalnız kartın sahibinin əmək müqaviləsi əsasında işəgötürəni (şirkət, təşkilat, müəssisə, fərdi sahibkar və s.) tərəfindən edilə bilər. Belə kartlara əsas mədaxil mənbəyi əmək haqqı, mükafat, məzuniyyət pulu, ezamiyyə xərcləri və s. bu tip köçürmələr hesab edilir. Belə kartların istehsal xərci kart sahibinin işəgötürəni ilə bank arasında bağlanmış müvafiq müqaviləyə uyğun olaraq işəgötürəni tərəfindən ödənilir. Bu şərt yalnız əmək haqqı kartlarına aiddir.

3.40. Bankda olan istənilən kart hesabına həyat keçirilən mədaxil əməliyyatının valyutası həmin hesabın valyutasından fərqli valyutada olduqda, əməliyyat Müştəridən əlavə razılıq alınmadan əməliyyatın icra edildiyi günə olan Bankın valyuta məzənnəsi və qüvvədə olan plastik kart tariflərinə uyğun şəkildə Bank tərəfindən müvafiq olaraq həmin hesabın valyutasına mübadilə olunaraq həyata keçirilir.

## 4. Ödəniş kartı üzrə “Tərəflər”in hüquq və vəzifələri

**4.1. «Bank»ın hüquqları:**
4.1.1. Kart üzrə limitləri, xidmət haqları, mədaxil, məxaric, köçürmə əməliyyatlarına məhdudiyyətləri, tarifləri müstəqil müəyyən etmək və birtərəfli qaydada dəyişmək;
4.1.2. Hesabda overdraft yarandığı halda, “Müştəri”yə xəbərdarlıq göndərməklə əsas və əlavə kartları bloklaşdırmaq, həmçinin ödəniş kartı üzrə yaranan overdraftlar barədə məlumatları MKR-ə və KB-ə təqdim etmək;
4.1.3. Kartdan qanuna zidd, qeyri-sağlam, qeyri-qanuni məqsədlərlə istifadə edilməsi, borcun yaranması və bu şərtlərə əməl etməməsi, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorizmin maliyyələşdirilməsi üçün istifadə edilməsi və ya “Müştəri”nin bu Şərtlərin hər hansı bir müddəasına əməl etməməsi səbəbi ilə kartı bloklaşdırmaq, şübhəli əməliyyatların qeyri-qanuniliyi sübut edildikdə isə Müqaviləyə birtərəfli qaydada xitam vermək;
4.1.4. “Müştəri”nin özü və benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim etmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduqda, habelə “Müştəri”nin işgüzar münasibətlərinin mahiyyəti və məqsədi barədə məlumatların əldə edilməsi mümkün olmadıqda kartı bloklaşdırmaq və həmin məlumatları tələb etmək, “Müştəri” 3 (üç) iş günü ərzində həmin məlumatları banka təqdim etmədiyi halda, habelə“Müştəri” tərəfindən təqdim edilən sənədlərdə saxta məlumatlar aşkar edildikdə Müqaviləyə birtərəfli qaydada xitam vermək;
4.1.5. İstifadə müddəti başa çatmış Kartın dəyişdirilməsindən imtina etmək,
4.1.6. “Müştəri” Kartının dəyişdirilməsi barədə “Banka” müraciət etdikdə, kartının istifadəsinə görə xidmət haqqını və digər xərcləri tutmaq şərtilə Kartı yenisi ilə əvəz etmək. Bu halda Kartın istifadə müddətinin uzadılması və ya yeni kartın verilməsi zəruriliyini bank həll edir;
4.1.7. “Müştəri”nin “Bank”a olan və ya yarana biləcək bütün borc məbləğlərini (faiz, xidmət haqqı və s) “Müştəri”nin kart hesablarından, habelə “Bank”da olan digər hesablarından (əmanət, cari, depozit hesabları və s.) olan pul vəsaitlərindən borc öhdəliyi miqdarında akseptsiz qaydada silmək;
4.1.8. “Müştəri” “Bank”ın əməkdaşı olduğu və bu şərtlər üzrə öhdəlikləri vaxtında icra etmədiyi təqdirdə əmək haqqı hesabında olan vəsaitdən (maaş, mükafat, əmək haqqına əlavə üzrə digər gəlirlərdən) borc öhdəliyi miqdarında akseptsiz qaydada silmək;

4.1.9. “Müştəri”nin ərizəsi əsasında hesabı bağlamaq, “Müştəri”nin Kartını (əsas və ya əlavə) geri almaq və müvafiq qaydada ləğv etmək;
4.1.10. Kartların hazırlanması, tədavülə buraxılması və ləğv edilməsi ilə bağlı bankdaxili qayda, prosedur və təlimatlara birtərəfli qaydada əlavə və dəyişikliklər etmək;
4.1.11. “Müştəri”yə təqdim edilən hesabdan çıxarışlara görə təqdim edildiyi gündən etibarən 10 təqvim günü ərzində “Bank”a yazılı qaydada etiraz edilmirsə, həmin çıxarışlarda göstərilən məlumatları “Müştəri” tərəfindən təsdiq olunmuş hesab etmək;
4.1.12. Kart üzrə əsassız silinmələrə və səhv ödənişlərlə bağlı müraciətlərə “Müştəri”nin müraciəti əsasında qanunvericilik və beynəlxalq ödəniş sistemləri tərəfindən təsdiq edilmiş qaydalar əsasında nəzərdə tutulan müddətlərdə baxmaq (kartdan karta əməliyyatları istisna olmaqla);
4.1.13. Kartın təhlükəsizliyinin təmin olunması, kartın dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması, “Müştəri”nin kredit xətti ayrılmış kart üzrə öhdəliklərini yerinə yetirə bilməməsi təhlükəsinin qarşısının alınması məqsədilə kartı bloklaşdırmaq;
4.1.14. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə uyğun olaraq rəsmiləşdirilmiş müvafiq səlahiyyətli orqanın qərarları ilə hesab üzrə əməliyyatları dayandırmaq.
4.1.15. Əməliyyat vaxtı xarici valyutanın hesablaşma valyutasına konvertasiyası üçün “Müştəri”dən əlavə haqları almaq, eyni zamanda aparılmış əməliyyata görə haqqların əməliyyat gününə olan tariflərlə deyil, silinmə gününə qüvvədə olan tariflərə uyğun məbləğdə “Müştəri”nin hesabından akseptsiz qaydada silmək və ya həmin məbləğin “Müştəri” tərəfindən ödənilməsini tələb etmək.
4.1.16. Bank tərəfindən Müştəriyə loyallıq, təşviq, mükafatlandırma və digər analoji proqramlar çərçivəsində təqdim edilən və/və ya hesablanan cashback, bonus, mükafat və digər şərti vahidləri, onların təqdim edildiyi və/və ya hesablandığı tarixdən etibarən 2 (iki) il ərzində Müştəri tərəfindən istifadə edilmədikdə və ya Bank tərəfindən müəyyən edilən daha qısa müddət ərzində istifadə edilmədikdə, sonuncu halda Müştəriyə həmin müddət barədə ən azı 30 (otuz) iş günü əvvəl məlumat verilməsi şərtilə, ləğv etmək/silmək;
4.1.17. Bu şərtlər üzrə digər hüquqları həyata keçirtmək.

**4.2. «Bank»ın vəzifələri:**
4.2.1. Kartın itirilməsi və ya oğurlanması, habelə kartın ŞEN-kodunun üçüncü şəxslər tərəfindən qeyri qanuni yolla əldə edilməsi barədə “Müştəri” tərəfindən “Bank”a məlumat daxil olduqda, Kartı dərhal bloklaşdırmaq;
4.2.2. Kart “Bank”ın öz qənaətinə görə bloklaşdırıldıqda, bunun əsaslandırılmış səbəbi barəsində bloklaşdırmadan dərhal sonra “Müştəri”ni məlumatlandırmaq (bu şərtlə ki, qanunvericiliklə belə məlumatın verilməsi qadağan edilməsin);
4.2.3. Bank kartının bloklaşdırılmasına səbəb olan hal aradan qalxdıqdan sonra kartı blokdan çıxartmaq;
4.2.4. Bank kartının məlumatlarını kartdan istifadə etmək hüququ olan “Müştəri”dən və ya onun səlahiyyətli nümayəndəsindən başqa digər şəxslərə açıqlamamaq;
4.2.5. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, bank sirrini təşkil edən məlumatları açıqlamamaq;
4.2.6. “Müştəri”yə əvvəlcədən verilmiş kartın əvəz edilməsi halı istisna olmaqla, “Müştəri” müraciət etmədən kartı ona təqdim etməmək;
4.2.7. Kartın və onunla əlaqədar hər hansı fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının “Müştəri”yə təhlükəsiz göndərilməsini təmin etmək;

4.2.8. Ödəniş əməliyyatını icra etməzdən əvvəl və ya icra etdikdən dərhal sonra əməliyyat haqqında müvafiq məlumatları “Müştəri”yə təqdim etmək;
4.2.9. “Müştəri” tərəfindən ödəniş əməliyyatının avtorizə edildiyini inkar etdikdə və ya ödəniş əməliyyatının səhv icra olunduğunu bildirildikdə, ödəniş əməliyyatının autentifikasiya olunduğunu, düzgün qeydə alındığını, ödəniş əməliyyatı üzrə məbləğin “Müştəri”nin müəyyən etdiyi ödəniş hesabına mədaxil edildiyini və ödəniş əməliyyatının texniki nasazlıq və ya “Bank”dan asılı olmayan digər hallar nəticəsində təsirə məruz qalmadığını sübuta yetirmək, əks halda 5 (beş) iş günündən gec olmayaraq (ölkə xaricində aparılan əməliyyatlarda isə iştirakçısı olduğu ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilmiş müddətdə) bütün xidmət haqları ilə birgə ödəniş əməliyyatının məbləğini “Müştəri”yə geri ödəmək;
4.2.10. Bu Şərtlər üzrə digər vəzifələri yerinə yetirmək.

**4.3. «Müştəri»nin hüquqları:**
4.3.1. Kart vasitəsilə hesabdan istifadə etmək və qanuna zidd olmayan ödəmələri, əməliyyatları (köçürmə, nağdlaşdırma, mədaxil, məxaric və s.) həyata keçirmək;
4.3.2. Kartın müddəti bitdikdə və ya Kart itirildikdə, yeni kartın əldə edilməsi haqqında yazılı ərizə ilə “Bank”a müraciət etmək;
4.3.3. Kart hesabı üzrə əməliyyatlar haqqında “Bank”dan hesabdan Çıxarış (arayış) almaq;
4.3.4. Kart üzrə limitlərin dəyişdirilməsi üçün müvafiq qaydada (mobil app, ərizə və s.) müraciət etmək;
4.3.5. Təqdim edilmiş hesabdan çıxarışlara, borc öhdəlikləri barədə digər sənədlərə qanunvericilik və beynəlxalq ödəniş sistemləri tərəfindən tətbiq edilən müddətlərdə etiraz etmək;
4.3.6. ŞEN-kodun itirildiyi və ya üçüncü şəxslərin istifadəsinə keçdiyi hallarda “Bank”a məxsus bankomatlar vasitəsilə və ya “Bank”a yaxınlaşmaqla, bu Şərtlərə uyğun olaraq ŞEN-kodu dəyişdirmək;

**4.4. «Müştəri»nin vəzifələri:**
4.4.1. “Bank” tərəfindən “Bank”ın qüvvədə olan tariflər əsasında müəyyən edilmiş limitləri qəbul etmək, bu limitlərə riayət etmək və limitdən artıq pul vəsaiti istifadə edərsə, yaranmış overdraft borcunu dərhal Banka ödəmək;
4.4.2. Kartdan bu Şərtlərə uyğun olaraq istifadə etmək, kartı əldə etdikdən dərhal sonra onun fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının təhlükəsiz saxlanmasını təmin etmək, kartın itirilməsini, oğurlanmasını və ya səlahiyyətli olmayan şəxs tərəfindən qeyri-qanuni olaraq istifadə olunmasını müəyyən etdikdə, “Bank”ı dərhal məlumatlandırmaq;
4.4.3. Yeni Kart verildikdə, bütün çəkilən xərcləri “Bank”ın qüvvədə olan tariflərinə uyğun ödəmək;
4.4.4. Kartdan istifadə ilə bağlı yaranan “Bank”ın qüvvədə olan tariflərinə uyğun hesablanmış xidmət haqlarını, yaranmış borcu və digər ödənişləri qeyd-şərtsiz dərhal ödəmək, ödəmədiyi təqdirdə hesabından aksepsiz qaydada “Bank” tərəfindən silinməsinə etiraz etməmək;
4.4.5. “Bank”a təqdim etdiyi məlumatların düzgünlüyünə, adına olan kartın ŞEN-kodu, mobil nömrə, şəxsiyyət vəsiqəsi, token, digər eyniləşdirmə barədə məlumatların üçüncü şəxslər tərəfindən qeyri-qanuni yolla əldə edilməsi, kartın itirilməsi, oğurlanması və ya üzərində təhriflər edilməsinə görə məsuliyyət daşımaq;
4.4.6. Hesab üzrə çıxarışda aparılmış əməliyyatlar üzrə hesaba səhvən daxil edilən və yaxud hesabdan silinən məbləğlərin müəyyən edilməsi məqsədi ilə çıxarışı aldığı tarixdən 10 (on) təqvim günü ərzində və ya əməliyyatın həyata keçirildiyi tarixdən 35 (otuz beş) təqvim günündən gec olmayaraq etirazını “Bank”a təqdim etmək;

4.4.7.“Bank” tərəfindən kartın fəaliyyətinin dayandırıldığı və kartın dəyişdirilməsindən imtina edildiyi halda, “Bank” qarşısında olan borc və başqa öhdəliklərini bütövlüklə yerinə yetirənə qədər bu Şərtlərin müddəalarının qüvvədə olduğunu qəbul etmək;
4.4.8. “Bank”ın təyin etdiyi limit həddlərinə riayət etmək və bu öhdəliklərdən məlumatının olmamasına istinadən etiraz etməmək, limitləri aşdığı hallarda, “Bank” tərəfindən müəyyən edilib tətbiq edilən cərimələri qəbul etmək, kartın istifadəsini dayandırmaq;
4.4.9. Üzərinə qoyulmuş vəzifələrini qəsdən və ya kobud ehtiyatsızlıqdan pozması halında, avtorizə edilmədən həyata keçirilən ödəniş əməliyyatları üzrə yaranan itkilərə görə tam məsuliyyət daşımaq.

## 5. Kartın verilməsi üçün təminat

5.1. “Bank” Kartın verilməsinə görə uyğun gördüyü hər cür təminatı “Müştəri”dən tələb etmək hüququna malikdir;
5.2. “Müştəri” “Bank”ın müəyyən etdiyi şərt və formalarda təminat verməyə borcludur.
5.3. “Bank” mümkün ola bilən ziyanın qarşısını almaq üçün müəyyən etdiyi miqdarda sığorta depozitinin və ya girovun qoyulmasını tələb edə bilər və istədiyi vaxt bu miqdarı dəyişə bilər;
5.4. “Müştəri”nin hər hansı şəkildə “Bank”a verdiyi təminat Kartdan bu Şərtlərə uyğun istifadə ilə bağlı yarana biləcək borcların qaytarılmasının icrası üsuludur.

## 6. Elektron bank xidməti

6.1. Bu Şərtlərə görə “Bank” “Müştəri”yə elektron bank xidmətlərinin göstərilməsini təmin edir, “Müştəri” isə həmin xidmətlərdən razılaşdırılmış şərtlər daxilində istifadə edir.
6.2. Bu şərtləri təsdiq etməklə “Müştəri” Bankın mövcud və gələcəkdə təklif edəcəyi bütün növ elektron xidmətlərdən istifadə hüququnu əldə edir və elektron xidmətlərdən istifadə qaydaları “Müştəri” ilə Bank arasında ayrıca razılaşdırıla bilər. Əgər “Müştəri” ilə bundan əvvəl bağlanılmış istənilən müqavilələr ilə bu şərtlərin müddəaları arasında ziddiyyət yaranarsa, bu şərtlərin müddəaları üstün qüvvəyə malikdir.
6.3. Bank bu şərtlər üzrə təklif olunan elektron xidmətlərini “Müştəri” tərəfindən verilən identifikasiya məlumatları əsasında təqdim edir. Əgər qanunvericiliklə başqa hal nəzərdə tutulmayıbsa, Bank “Müştəri”dən əlavə informasiyanı sorğu etmək hüququnu özündə saxlayır.
6.4. Elektron cihazlar vasitəsilə imzalanmış elektron bank xidmətlərinə aid istənilən şərtlər çatdırılmış və təsdiq edilmiş “yazılı sənəd” hesab olunur.
6.5. “Müştəri” razılaşır ki, onun tərəfindən identifikasiya və verifikasiya məlumatlarından istifadə etməklə, elektron cihazlarla və/və ya qanunvericiliklə qadağan olunmayan digər üsullarla aparılan istənilən əməliyyatlar, “Müştəri” tərəfindən aparılan əməliyyatlar kimi qəbul olunacaqdır və identikifasiya məlumatları hər hansı mübahisə predmeti qismində çıxış etmir.
6.6. Bank “Müştəri”yə elektron bank xidmətləri sahəsində bank xidmətlərinin istənilən hissəsinə əlavələr etmək, istənilən hissəsini çıxartmaq və ya dəyişmək hüququnu özündə saxlayır. Bu hallarda “Müştəri” ilə əvvəlcədən təsdiq edilmiş şərtlərə yeni əlavə olunmuş və ya dəyişdirilmiş qaydalar tətbiq olunacaqdır.
6.7. “Müştəri” qəbul edir ki, identifikasiya məlumatları vasitəsilə ona göndərilən məlumatların “Müştəri”nin hərəkət və ya hərəkətsizliyi nəticəsində üçüncü şəxslərin əlinə keçməsinə görə bütün risklər (real zərər, əldən çıxmış fayda, bütün digər ziyan) onun üzərinə düşür.
6.8. Elektron bankçılıq xidmətlərinə görə tariflər, onlara əlavə və ya dəyişikliklər etmək hüququ Banka məxsusdur.

6.9. “Müştəri” tərəfindən qeyd edilən identifikasiya məlumatları və digər verilənlər “Müştəri”nin son verilənləri kimi qəbul edilir və onlar “Müştəri”nin Bankla olan bütün münasibətlərinə (şərtlərdə daxil olmaqla) aid edilir. Bu məqsədlə əvvəl təqdim edilən identifikasiya məlumatları və digər verilənlər qüvvədən düşmüş hesab olunur.
6.10. Bank tərəfindən bu şərtlər çərçivəsində çatdırılmalı olan bütün məlumatlar “Müştəri”nin şəxsi məlumatlarına dair” ərizədə qeyd olunan identifikasiya məlumatları vasitəsi ilə “Müştəri”yə göndəriləcəkdir. Göndərilmiş məlumatlar “Müştəri” tərəfindən qəbul edilmiş sayılır.

**“Tərəflər” <u>arasında Razılaşma:</u>**

6.11. “Müştəri” Elektron Bankçılıq sisteminə qoşulmaq üçün Banka sifariş (ərizə) verir. Elektron Bankçılıq sistemində sənədləri təsdiq etmək hüququna yalnız “Müştəri”nin Banka təqdim etdiyi sifarişdə (ərizədə) qeyd olunan səlahiyyətli şəxslər malikdir. “Müştəri” bu Şərtlər ilə ona məlum olan məlumatları istənilən vasitə ilə üçüncü şəxslərə açıqlamamaq, “Müştəri”lərin sistemdə istifadə olunan adlarını, parolları və kodları gizlin saxlamaq və üçüncü şəxslərə verməmək, sistemin təşkili və fəaliyyətinin xüsusiyyətlərini üçüncü şəxslərə açmamaq (Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə və ya “Tərəflər” arasında əlavə sazişlə nəzərdə tutulan hallar istisna olmaqla) öhdəliyini öz üzərinə götürür. “Müştəri”yə məxsus və ya bu Şərtlər üzrə Elektron Bankçılıq xidmətlərinin yerinə yetirilməsi üçün nəzərdə tutulan məlumatların üçüncü şəxslər tərəfindən əldə edilməsi, üçüncü şəxslər tərəfindən bu məlumatları istifadə edilərək əməliyyat aparılması üçün “Müştəri” cavabdehdir. Bu hərəkətlərin baş verdiyi zaman məsuliyyəti “Müştəri” daşıyır və bu halda “Müştəri” Banka heç bir tələb irəli sürə bilməz. “Müştəri”lərin sistemdə istifadə olunan adlarını, parolları və kodları üçüncü şəxslərə bildirdikləri və ya üçüncü şəxslər tərəfindən bunlar istifadə etdiyi zaman “Müştəri” məsuliyyət daşıyır.
6.12. “Müştəri” özünəməxsus eyniləşdirmə məlumatlarını (mobil telefon nömrələri, elektron poçt ünvanını və s.) “Bank”a təqdim edir. Həmin məlumatlar “Tərəflər” arasında elektron bankçılıq çərçivəsində aparılacaq əməliyyatlar zamanı “Bank” tərəfindən “Müştəri”nin eyniləşdirilməsi və yerinə yetiriləcək əməliyyat risklərinin baş verməməsinin və təhlükəsizliyinin təmin edilməsi məqsədilə istifadə ediləcək.
6.13. “Müştəri” internet bankçılıq vasitəsi ilə hesabları barədə məlumat əldə etmək, onlayn ödəmələri həyata keçirmək, kart sifarişini etmək, dövri ödənişləri etmək, konvertasiya əməliyyatlarını yerinə yetirmək, bank qarantiyası üçün müraciət etmək və digər xidmətlərdən istifadə etmək imkanın əldə etmiş olacaq;
6.14. Məsafədən xidmətlər göstərilərkən əməliyyatların aparılması, müvafiq razılaşmalar, ərizələr, digər sənədlərin təsdiq edilməsi, imzalanması üçün “Müştəri”dən müvafiq elektron imzadan (“Elektron imza” sertifikatları, SİMA imza və qanunvericiliklə müəyyən edilmiş qaydada təkmil sertifikatına malik digər elektron imzalar nəzərdə tutulur) istifadə edilməsini tələb edəcəkdir.
6.15. Hər hansı əməliyyatın aparılması üçün “Müştəri”dən ona verilmiş daimi şifrədən və birdəfəlik şifrədən (ikili autentifikasiya) istifadə etməklə əməliyyatın aparılması tələb olunacaqdır. Birdəfəlik şifrənin və sistemdə aparılan digər əməliyyatların təsdiqinin göndərilməsi üçün “Müştəri”nin elektron bank xidmətinə qoşulması zamanı qeydə alınan mobil nömrəsi istifadə oluna bilər. Həmin mobil nömrənin digər şəxslər tərəfindən istifadəsinə görə “Bank” məsuliyyət daşımır.
6.16. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət “Müştəri”nin üzərinə düşür.
6.17. “Müştəri” məxfi verilənlər, qeydiyyat yazıları və kodlarının düzgün istifadə və saxlanılmasına, qeydiyyatın tələb edilən qaydada aparılmasına, habelə məxfi verilənlərindən istifadə etməklə daxilolma, əməliyyatların və digər hərəkətlərin yerinə yetirilməsi nəticəsində Banka zərər dəydikdə məsuliyyət daşıyır.
6.18. “Müştəri” ödənişi alanın rekvizitlərinin düzgünlüyünə, ödənişin təyinatının və sistem üzrə Banka göndərilən elektron sənədlərdə göstərilən digər məlumatların Azərbaycan Respublikasının

qanunvericiliyinə, Mərkəzi Bankın normativ sənədlərinə müvafiqliyinə nəzarət etməyə borcludur. Göstərilənlərdən sənədin lazımi səviyyədə tərtib olunmaması üçün məsuliyyət “Müştəri”nin üzərinə düşür.

6.19. “Müştəri” razılaşır ki, “Müştəri” tərəfindən identifikasiya məlumatlarından istifadə etməklə, elektron cihazlarla və/və ya qanunvericiliklə qadağan olunmayan digər üsullarla aparılan istənilən əməliyyatlar, “Müştəri” tərəfindən aparılan əməliyyatlar kimi qəbul olunacaqdır və identifikasiya məlumatları hər hansı mübahisə predmeti qismində çıxış etmir.

6.20. “Müştəri” razılaşır ki, elektron xidmətin göstərilməsi zamanı avadanlıqlarda, şəbəkədə, əlaqə xətlərində baş verən istənilən nasazlıqlara və “Müştəri”nin müvafiq ərizəsi ilə elektron bank xidmətindən istifadə edən şəxslərin əldə etdiyi məlumatların (hesablar, hesablardan qalıq pul vəsaitləri, hesablar üzrə əməliyyatlar və s.) üçüncü şəxslərə yayılmasına görə Bank məsuliyyət daşımır. Bu zaman hər hansı itkilərə görə risk “Müştəri”nin üzərinə düşür;

6.21. “Tərəflər” bu şərtlər ilə nəzərdə tutulmuş vasitələr ilə imzalanmış elektron sənədlərin, onlar tərəfindən imzalanmış, kağız daşıyıcıda olan müvafiq sənədlərlə hüquqi baxımdan eyniliyini və hüquqi qüvvəyə malik olduqlarını qəbul edirlər.

6.22. Elektron xidmətlərdən istifadə zamanı dəyişikliklər, yeniliklər barədə “Müştəri” məlumatlandırılır;

6.23. “Müştəri” aparılan əməliyyatlar üzrə “Bank”ın tarifləri və şərtləri ilə müəyyən edilən xidmət haqlarını ödəməlidir. Hesablanmış xidmət haqlarını “Bank” “Müştəri”nin hesablarında olan vəsaitlərdən birtərəfli qaydada tuta bilər. “Müştəri” seçilmiş əməliyyatları icra etməklə, mövcud tariflərlə razı olduğunu və xidmət haqlarının onun bank hesabından tutulmasına razı olduğunu ifadə etmiş olur.

6.24. “Müştəri” tərəfindən əməliyyatlar internet bankçılıq vasitəsi ilə real vaxt rejimində aparılır. Nəzarət vaxtı – Bankın iş saatları ərzində həyata keçirilir.

**Elektron bank xidməti üzrə “Tərəflər”in hüquq və vəzifələri**

***<u>«Bank»ın hüquq və vəzifələri:</u>***

6.25. “Müştəri” bu şərtlər üzrə öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə xidmətlərin göstərilməsini birtərəfli qaydada dayandırmaq;

6.26. “Müştəri”nin hesabı bloklaşdırıldıqda, ona həbs qoyulduqda və ya AR qanunvericiliyi ilə tələb olunan digər hallarda əməliyyatların icrasını məhdudlaşdırmaq;

6.27. “Müştəri”nin hesablarından özünün xidmət haqlarını silmək (akseptsiz qaydada);

6.28. Bankda texniki nasazlıqların və ya elektron sənədlərin istifadə edilməsinə maneçilik törədən halların meydana gəldiyi təqdirdə müvafiq maneə aradan qaldırılanadək birtərəfli qaydada sistemin işini dayandırmaq və elektron sənədlərlə mübadiləni təxirə salmaq.

6.29. “Müştəri”dən bu Şərtlər üzrə ona məlum olan məlumatların üçüncü şəxslərə açıqlanmamasını tələb etmək. “Müştəri” bu tələbə riayət etmədikdə Bank heç bir məsuliyyət daşımır, bu zaman bütün məsuliyyət “Müştəri”nin üzərinə düşür.

6.30. İnternet bank xidmətin həyata keçirilməsi zamanı istənilən borcun silinməsi ilə əlaqədar səhv əməliyyatlar aparıldıqda, Bank “Müştəri”nin razılığını almadan aparılmış əməliyyatların ləğvini həyata keçirə bilər;

6.31. “Müştəri”nin fəaliyyətinin Bank üçün zərər gətirə biləcəyini hesab etməyə Bankda kifayət qədər əsasların olduğu təqdirdə, birtərəfli qaydada, “Müştəri”yə bildirmədən, bu Şərtlərə xitam vermək və “Müştəri”yə sistem üzrə xidmət göstərilməsini dayandırmaq.

6.32. Bank tərəfindən birtərəfli qaydada dərhal, ciddi əsaslar olduqda (qeyri-sağlam xarakterli əməliyyatlar, çirkli pulların yuyulması, korrupsiya və terrorizmin maliyyələşdirilməsi) və bank hesabı sahibinin bank hesabından digər qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübuta

yetirildikdə, bu Şərtlərə xitam vermək və "Müştəri"yə sistem üzrə xidmət göstərilməsini dayandırmaq.
6.33. "Müştəri" özü şəxsən və ya "Müştəri"nin adından (müvafiq sənəd olmaqla) çıxış edən və bu Şərtlər üzrə bank əməliyyatlarını aparmağa səlahiyyəti olan şəxs hər hansı səbəbdən dəyişdikdə, əvəz edildikdə və ya digər üsulla bank əməliyyatlarının aparılması hüququndan məhrum olduqda bu barədə "Müştəri"dən dərhal yazılı məlumat almaq. Banka yazılı məlumat verilmədən "Müştəri" tərəfindən bank əməliyyatlarını aparmaq hüququnu və lazımi məlumatları başqa şəxslərə verdikdə, həmin şəxslər tərəfindən həyata keçirilmiş bank əməliyyatlarının nəticələrinə görə Bank məsuliyyət daşımır və bu halda "Müştəri"nin Banka tələb sürmək ixtiyarı yoxdur.
6.34. "Müştəri" ilə bağlı məlumatların konfidensiallığını təmin etmək (qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla);
6.35. "Müştəri" tərəfindən müəyyən edilmiş formada verilmiş və "Müştəri"nin elektron imza vasitələri ilə təsdiq edilmiş elektron tapşırıqları icra etmək;
6.36. "Müştəri" tərəfindən müvafiq müraciət edildikdə, bir iş günü ərzində sistemdə blokdan açmaq;
6.37. "Müştəri"nin sistemdə qeydiyyata alındıqdan sonra hər hansı nöqsan yarandıqda həmin gündən sonra gələn iş günü ərzində aradan qaldırılır və istifadə üçün müvafiq şərait yaratmaq;

***<u>«Müştəri»nin hüquq və vəzifələri:</u>***

6.38. Sistemdə qeydiyyata alınması günündən sonra gələn bank günündən başlayaraq, sistemdən istifadə etmək;
6.39. Elektron ödəniş tapşırıqları bu Şərtlər ilə uyğun olduqda bank əməliyyatlarının aparılmasını tələb etmək;
6.40. Banka yazılı şəkildə əlavə ərizə ilə müraciət edərək identifikasiya məlumatlarında dəyişikliklər etmək;
6.41. "Müştəri" kart üzrə və bu şərtlərdən irəli gələrək ona məxsus olan digər məlumatların istənilən vasitə ilə üçüncü şəxslərə açıqlanmamasını öz üzərinə götürür. "Müştəri"yə məxsus və ya bu Şərtlər üzrə İnternet-Bank xidmətlərinin yerinə yetirilməsi üçün nəzərdə tutulan məlumatların üçüncü şəxslər tərəfindən əldə edilməsi, üçüncü şəxslər tərəfindən bu məlumatları istifadə edilərək əməliyyat aparılması üçün "Müştəri" cavabdehdir. Bu hərəkətlərin baş verdiyi zaman məsuliyyəti "Müştəri" daşıyır və bu halda "Müştəri" Banka heç bir tələb irəli sürə bilməz;
6.42. "Müştəri" aşağıdakı hallardan hər hansı biri baş verdikdə, dərhal banka yazılı bildiriş təqdim etməli və ya (012) 931 qısa nömrəli qaynar xəttinə məlumat verməlidir:

- bank hesabında olan vəsaitdən səlahiyyətsiz olaraq istifadə edildikdə;
- bank hesabı üzrə əməliyyatlarda hər hansı səhv və ya uyğunsuzluq aşkar etdikdə;
- Qeydiyyat zamanı qeydə alınmış mobil nömrəsini və telefonunu itirdikdə;
- autentifikasiya məlumatlarına səlahiyyətsiz giriş üzrə şübhə doğuran halları müəyyən etdikdə;
- E-bankçılıq üzrə texniki nasazlığın mövcudluğu və ya eyniləşdirmə üsullarında səhv baş verdikdə.

6.43. "Müştəri" özü şəxsən və ya "Müştəri"nin adından (müvafiq sənəd olmaqla) çıxış edən və bu Şərtlər üzrə bank əməliyyatlarını aparmağa səlahiyyəti olan şəxs hər hansı səbəbdən dəyişdikdə, əvəz edildikdə və ya digər üsulla bank əməliyyatlarının aparılması hüququndan məhrum olduqda bu barədə Banka dərhal yazılı məlumat vermək. Banka yazılı məlumat vermədən "Müştəri" tərəfindən bank əməliyyatlarını aparmaq hüququnu və lazımi məlumatları başqa şəxslərə verildikdə, həmin şəxslər tərəfindən həyata keçirilmiş bank əməliyyatlarının nəticələrinə görə Bank məsuliyyət daşımır və bu halda Banka tələb sürmək ixtiyarı yoxdur;
6.44. Sistemdəki elektron sənədləri, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, normativ aktlarına müvafiq olaraq doldurmaq;

6.45. Bank heç bir halda sms və ya email vasitəsilə identifikasiya məlumatları ilə bağlı sorğu göndərməyəcəkdir. Bu səbəbdən telefon, e-mail və ya başqa bir mənbədən bənzər bir tələb ilə qarşılaşsa, "Müştəri" heç bir məlumat verməməlidir;
6.46. Sistemə sanksiya verilməmiş giriş cəhdinin aşkar edilməsi haqqında dərhal Banka məlumat vermək;
6.47. Sistemə sanksiya verilməmiş girişi mümkün edən vəziyyətlər və ya qeydiyyat məlumatlarının rabitə xətti ilə açıq şəkildə ötürülməsi halı haqqında Bankı dərhal məlumatlandırmaq;
6.48. "Müştəri" sistemin təşkili və fəaliyyətinin xüsusiyyətlərini üçüncü şəxslərə açmamağı öhdəsinə götürür;
6.49. "Müştəri", ödənişi alanın rekvizitlərinin düzgünlüyünə, ödənişin təyinatının və sistem üzrə Banka göndərilən elektron sənədlərdə göstərilən digər məlumatların Azərbaycan Respublikasının qanunvericiliyinə,normativ aktların, qaydaların tələblərinə nəzarət etməyə borcludur. Göstərilən səbəblərdən sənədin lazımi səviyyədə tərtib olunmaması üçün məsuliyyət "Müştəri"nin üzərinə düşür;
6.50. "Müştəri", ödənişin məbləğinin və özünün Bankdakı hesabındakı qalığın müvafiqliyinə nəzarət etmək, overdraft-kreditləşmə halları istisna olunmaqla, ödənişləri ancaq bu qalığın hüdudlarında həyata keçirmək;
6.51. "Müştəri" göstərilən identifikasiya məlumatlarında hər hansı dəyişiklik olduqda, dərhal Bankı məlumatlandırmalıdır. Əgər o, identifikasiya məlumatlarında aparılmış dəyişikliklər ilə əlaqədar məlumatı Banka təqdim etməsə, Bankda mövcud identifikasiya məlumatları vasitəsilə "Müştəri"yə təqdim edilən informasiya "Müştəri"yə şəxsən çatdırılmış hesab olunacaqdır;
6.52. "Müştəri", Bankın razılığı olmadan, bu Şərtlər ilə nəzərdə tutulmuş hüquq və öhdəlikləri üçüncü şəxsə verə bilməz.
6.53. Əməliyyatların aparılması üçün birdən artıq şəxsin təsdiqi tələb edildiyi halda bütün şəxslərin təsdiqinin mövcudluğunu təmin edir;
6.54. Qanunvericilik ilə müəyyən edilmiş qaydada "Müştəri" ona aid olan istənilən məlumatın Bank tərəfindən əldə edilməsinə, ötürülməsinə və ya yayılmasına etiraz etməyəcəkdir və bununla bağlı Banka hər hansı tələb irəli sürməyəcəkdir.

6.55. Bu şərtlərin bağlanması üçün "Müştəri" elektron xidməti vasitəsilə identifikasiya məlumatlardan istifadə edərək Banka müəyyən formada tərtib olunmuş ərizə ilə müraciət edir. Bu zaman "Müştəri" mütləq qeyd etməlidir:
6.56. Elektron xidmətdən istifadə nəticəsində, Bank qarşısında yaranacaq borcların ödənişi üçün "Müştəri" hesabında olan vəsaitin sərəncamsız müvafiq sənədlər ilə Bank tərəfindən götürülməsinə razıdır;

**<u>İnformasiya təhlükəsizliyi metodları:</u>**
6.57. "Müştəri"nin *İnternet Bankinq/ Mobile Bankinq* sistemindən istifadə etməsi ikili Autentifikasiya (Login və Parol, FİN və mobil nömrə, kart nömrəsi və mobil nömrə, ASAN imza: ASAN nömrə və PİN 1) və birdəfəlik şifrəni daxil etdikdən sonra həyata keçirilir.
6.58. Bank "Müştəri"nin *İnternet Bankinq/ Mobile Bankinq* Sisteminə girişini yalnız ikili Autentifikasiyadan keçdikdən sonra sistemdə olan məlumatlarla uyğunluq təşkil etdiyi təqdirdə təmin edir.
6.59. "Tərəflər" təsdiq edirlər ki, Autentifikasiya zamanı "Müştəri" tərəfindən istifadə olunan Login unikaldır və Sistemə girişin "Müştəri" tərəfindən həyata keçirilməsini təsdiq edir.
**Login və parol ilə əməliyyatlar:**
6.60. Login Bank tərəfindən generasiya olunur və ikinci nüsxəsi "Müştəri"yə qaytarılan Ərizədə qeyd olunur. Parol "Müştəri"yə onun Ərizədə qeyd etdiyi mobil telefon nömrəsinə sms-məlumatlandırma və ya birdəfəlik şifrə xidməti vasitəsilə göndərilir.

6.61. “Müştəri” ona verilmiş parol haqqında məlumatları üçüncü şəxslərdən qorumalı, parolu Bankın əməkdaşlarına açıqlamamalı, habelə parol təhrif olunduğu təqdirdə bu barədə dərhal Banka məlumat verməlidir.

***Qeyd:*** *Qeydiyyat zamanı “Bank” tərəfindən verilmiş ilk parolun, təhlükəsizlik məqsədilə, dəyişmək ciddi surətdə tövsiyə olunur. Şifrənin yaddan çıxarılması, digər şəxs tərəfindən ələ keçirilməsi və bütün digər hallara görə bank heç bir məsuliyyət daşımır.*

***Elektron imza:***

6.62. Bank ilə “Müştəri” arasında elektron sənəd dövriyyəsi həyata keçirildikdə ödəniş xidmətlərindən istifadə zamanı göndərilən Elektron sənədin həqiqiliyini və tamlığını təsdiq etmək məqsədilə “Müştəri” elektron İmzadan istifadə edir. Elektron imza haqqında qanunvericiliyə əsasən “Müştəri”nin şəxsi imzasının analoqudur. Elektron imzanın əldə edilməsi “Müştəri” tərəfindən öz vəsaitləri hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

6.63. Bankın müəyyən etdiyi hallarda Elektron sənədlərin təsdiqi üçün SMS-parol, birdəfəlik şifrə, digər elektron imzadan istifadə oluna bilər.

6.64. “Müştəri” təsdiq edir ki, elektron imza ilə imzalanmış və Banka təqdim edilmiş elektron sənədlər:

- Sadə yazılı formada bağlanan əqdlər üçün müəyyən olunmuş tələblərə cavab verir və sənədlərin şəxsi imza ilə imzalanması zamanı yaratdığı hüquqi nəticələrə səbəb olur.
- Bu qəbildən olan sənədlər üçün tələb olunan göstəricilərə malik olan kağız daşıyıcıda tərtib olunmuş sənədlər ilə eyni hüquqi qüvvəyə malikdir və “Müştəri”nin bank hesablarında olan vəsaitlər üzrə onun adından əməliyyatlar aparmaq üçün əsasdır.
- Yalnız İnternet Bankçılıq Sistemi vasitəsilə Banka ötürüldüyü və /və ya Elektron sənəd formasında rəsmiləşdirildiyinə görə “Müştəri” və üçüncü şəxslər tərəfindən mübahisələndirilə, inkar edilə və ya etibarsız hesab edilə bilməz.
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada yazılı sübutlar ilə eyni hüquqi qüvvəyə malik olan sübut şəklində təqdim oluna bilər. Bu zaman qeyd edilən sübutların mümkünlüyü onların Elektron sənəd formasında və ya kağız daşıyıcıda surətinin təqdim olunmasına görə inkar edilə bilməz.

6.65. Elektron imzadan üçüncü şəxslər tərəfindən qeyri-qanuni istifadə nəticəsində “Müştəri”yə dəymiş ziyana görə Bank məsuliyyət daşımır.

**Sistemə giriş.**

6.66. Bu şərtləri təsdiq etmiş və şərtlərlə müəyyən olunmuş qaydada Sistemə qoşulmuş “Müştəri”yə təqdim edilir.

6.67. “Müştəri”nin Sistemə girişi onun Sistemdə Autentifikasiyası müsbət nəticələndiyi təqdirdə həyata keçirilir.

6.68. Mobil telefon SİM-kartının və/və ya mobil cihazının itirilməsi, o cümlədən oğurlanması və digər vasitələrlə “Müştəri”nin sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi nəticəsində ona dəymiş zərərə görə Bank məsuliyyət daşımır.

6.69. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı “Müştəri” tərəfindən rekvizitlərin, məbləğlərin və ya digər məlumatın səhv daxil edilməsinə görə və bunun nəticəsində ona dəymiş zərərə görə Bank məsuliyyət daşımır.

6.70. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması və sənədlərin imzalanması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət “Müştəri”nin üzərinə düşür.

6.71. “Müştəri”nin elektron Bankçılığa (internet və mobil cihazlar üzərindən bank əməliyyatlarının aparılmasının təmini) qoşulmaq imkanı var. “Tərəflər” razılığa gəlirlər ki, “Müştəri” Elektron Bankçılığa qoşulmaq və ondan istifadə etmək üçün mobil nömrə və Bankın ödəniş kartı ilə elektron formada qeydiyyatdan keçdiyi halda Bankın mobil tətbiqində

yerləşdirilmiş elektron bankçılığa dair qaydalar "Müştəri" tərəfindən onun qeydiyyat zamanı daxil etdiyi mobil telefon nömrəsinə daxil olan identifikasiya kodu vasitəsi ilə təsdiqlənir (qəbul olunur). Bu zaman "Müştəri"nin mobil telefon nömrəsinə daxil olan kod ilə təsdiqlənmiş qaydalar "Müştəri"nin şəxsi imzası ilə edilmiş təsdiq edilmiş hesab edilir.

## 7. Tərəflərin məsuliyyəti və bank sirri

7.1. Bu şərtlər üzrə öz öhdəliklərini icra etməyən və ya lazımınca icra etməyən tərəf digər tərəfə vurduğu zərərə görə qüvvədə olan qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır;
7.2. "Müştəri" hesablanmış faiz, rüsum, xidmət haqları və digər xərcləri "Bank"a tam həcmdə ödəmək öhdəliyi daşıyır;
7.3. "Bank" "Müştəri"nin hesabındakı pul vəsaitindən istifadə edilməsinə və/və ya onun hesabda olmasına görə "Müştəri"yə faiz ödəmir;
7.4. Bu şərtlərdə nəzərdə tutulmuş faizlərin və zərərin əvəzinin ödənilməsi "Müştəri"nin şərtlər üzrə öz öhdəliklərinin icrasından azad etmir.
7.5. "Müştəri"nin təqdim etdiyi əlaqə vasitələri (mobil nömrə, e-mail, faks, ünvan və digər) müvafiq ərizə formalarında düzgün qeyd edilməmişdirsə və ya dəyişikliklər barədə "Bank"a məlumat verilməmişdirsə, bu zaman "Bank", hesab üzrə göstərilən xidmətlərlə və ya ondakı dəyişikliklərlə bağlı məlumatın vaxtında "Müştəri"yə çatdırılmamasına görə heç bir məsuliyyət daşımır.

7.6. Ümumi Şərtlər və Müqavilə üzrə öhdəliklər Müştəri tərəfindən tam icra edilməyənədək, Müştəri Müqaviləyə birtərəfli qaydada xitam verə bilməz.

7.7. "Tərəflər"in digər məsuliyyətləri bu Şərtlərlə (nəzərdə tutulmadıqda qüvvədə olan qanunvericiliklə) müəyyən edilmişdir.

7.8. Bank Müştəriyə xidmət göstərmək üçün Müştəri barədə fərdi məlumatları ona heç bir zərər vurmamaq, habelə yayılmaması üçün məsuliyyət daşımaqla müxtəlif informasiya ehtiyatlarından əldə edə, habelə Müştərinin bank sirri təşkil edən məlumatlarını öz işçilərinə, nümayəndələrinə, ona hüquqi və digər xidmət göstərən digər şəxslərə, özünə aidiyyəti olan şəxslərə, bank fəaliyyətini həyata keçirərkən ondan tələb edən dövlət orqanlarına, maliyyə bazarlarına nəzarəti həyata keçirən orqanlara ölkədaxili və ya transsərhəd qaydada ötürə bilər və bu məlumatların ötürülməsi üçün Müştərinin əlavə razılığı tələb olunmur. Bu halda Bank məlumatı ötürdüyü şəxslərin həmin məlumatları məxfi saxlamağına dair birbaşa özü məsuliyyət daşıyır.

## 8. Fors-major hal(lar)

8.1. Fors-major, yəni qarşısıalınmaz qüvvənin (daşqın, uçqun, sel, zəlzələ, yer sürüşməsi, yanğın, müharibə, epidemiya silahlı iğtişaşlar, dövlət orqanlarının müvafiq qərarları, moratorium və digər fövqəladə hallar) təsiri nəticəsində yaranmış hallarda "Tərəflər" həmin halların mövcud olduğu müddət ərzində bu Şərtlərin tam və ya qismən yerinə yetirilməsindən azad edilirlər.
8.2. Fors-major hal(lar)ına istinad edən Tərəf bu hal(lar)ın baş verməsi haqqında digər Tərəfə dərhal yazılı qaydada və ya digər rabitə vasitəsilə məlumat verməlidir.
8.3. Fors-major hal(lar)ının baş verməsinə istinad edən Tərəf həmin hal(lar)ın baş verməsinin sübutu kimi müvafiq dövlət orqanı tərəfindən təsdiq edilmiş arayışı/sənədi digər Tərəfə təqdim etmək öhdəliyini daşıyır.
8.4. Bu Şərtlərin 8.3-cü bəndinin tələblərinə riayət etməyən Tərəf fors-major hal(lar)ın baş verməsinə istinad edə bilməz.

8.5. Fors-major hal(lar)ın müddəti 3 (üç) aydan çox müddətə davam etdikdə “Bank” bu Şərtlərin qəbul edilməsinə dair müqaviləyə birtərəfli qaydada xitam vermək hüququna malikdir.

## 9. Şərtlərin qüvvəyə minməsi, dəyişdirilməsi və ləğv edilməsi

9.1. Bu Şərtlər Bankın veb səhifəsində yerləşdirilir və bu “Şərtlər”ə dair Müqaviləni imzalamış “Bank” və “Müştəri” üçün bu Şərtlər müvafiq Müqavilə imzalandığı tarixdən qüvvəyə minir və Tərəflər bütün öhdəliklərini tam icra edənədək qüvvədə qalır. Tərəflər razılaşır ki, texniki cəhətdən imkan yaradıldığı halda elektron imza, gücləndirilmiş elektron imza, mobil nömrə vasitəsilə fərqli hərf və söz birləşmələrindən ibarət olan eyni məzmunlu açar sözlər (bundan sonra – açar söz) vasitəsilə göndərilmiş qısa mesajlar (bundan sonra – SMS), Bankın istifadəyə təqdim etdiyi halda mobil tətbiqi vasitəsilə elektron qaydada kliklər (bundan sonra – kliklər) əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir.
9.2. Elektron qaydada bank hesabı açılan zamanı qanunvericiliklə və bankdaxili qaydalarla müəyyən edilmiş qaydada təsdiq edilmə tədbirlərinin ardıcıllıqla yerinə yetirilməsi əməliyyatların və müvafiq sənədlərin imzalanmasına bərabər tutulur. Virtual kartlar, mobil tətbiq vasitəsilə gücləndirilmiş elektron imza və video zəng ilə (daha öncə bank hesabı mövcud şəxslərə isə yalnız gücləndirilmiş elektron imza) təsdiq edildiyi təqdirdə açılır. Elektron qaydada kart sifarişi yalnız rezident fiziki şəxslərə açılır. Elektron qeydiyyat və istifadə şərtlərinin icrası zamanı “Müştəri” tərəfindən yol verilmiş nöqsanlar bu Şərtləri, habelə təsdiq edilmiş hər bir daha öncəki əməliyyatları etibarsız edir.
9.3. Kartların məsafədən sifariş edilməsi zamanı mobil tətbiq və bankda tətbiq edilən digər elektron cihazlar vasitəsilə bu şərtlərin və müvafiq əməliyyatların aparılması zamanı elektron formada təsdiqlənmiş sənədlər kağız daşıyıcıda olan “Müştəri”nin şəxsi imzası ilə təsdiqlənmiş müvafiq sənədlərlə eyni hüquqi qüvvəyə malikdir. “Müştəri” qəbul edir ki, Bank tərəfindən birtərəfli qaydada dəyişdirilmiş elektron xidmət göstərilməsi haqqında Qaydalar, əməliyyatların aparılması zamanı təsdiqlənmiş elektron sənədlər mübahisələrin həlli zamanı sübutdurlar.
9.4. Ödəniş kartın müəyyən edilmiş istifadə müddəti bitdikdən sonra 5 (beş) təqvim günü müddətində “Müştəri” ona yeni kartın verilməsinə dair müvafiq ərizə ilə Banka müraciət etdikdə, uzadıla və ya yeni kart verilə bilər, lakin ödəniş kartı yalnız istifadə müddətinin son tarinədək istifadəyə yararlıdır;
9.5. Tərəflər arasında bağlanmış müvafiq Müqaviləyə tərəflərdən hər hansı biri tərəfindən birtərəfli qaydada xitam verilməsi ödəniş hesabının bağlanması üçün əsasdır.
9.6. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı elektron formada təsdiqlənmiş sənədlər kağız daşıyıcıda olan “Müştəri”nin şəxsi imzası ilə təsdiqlənmiş müvafiq sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.
9.7. Bu Şərtlər üzrə kartdan yalnız kartın üzərindəki etibarlılıq müddətində istifadə edilə bilər.
9.8. Bu Şərtlərin bank hesabına aid müddəaları “Müştəri”yə hesabın açıldığı gündən qüvvəyə minir və qeyri-müəyyən vaxt ərzində qüvvədədir (xitam verilməsi halı istisnadır).
9.9. Tərəflər bütün öhdəliklərini tam icra edənədək Müştəri ilə imzalanmış müqavilə və bu şərtlərin bəndləri qüvvədə qalır.
9.10. Aşağıdakı hallarda “Bank” müvafiq hesabı bağlayıb, həmin hesabla bağlı yaranmış hüquq münasibətlərinə birtərəfli qaydada xitam verə bilər və bu halda “Bank” “Müştəri” qarşısında heç bir məsuliyyət daşımır:

- “Müştəri” tərəfindən 6 ay ərzində bank hesabı üzrə əməliyyatlar aparılmadıqda;
- “Müştəri”nin hesabında saxlanan pul vəsaitinin məbləği “Bank”ın daxili qaydaları ilə nəzərdə tutulmuş minimum miqdardan az olduqda, bir şərtlə ki, belə məbləğ “Bank”ın bu barədə xəbərdarlıq etdiyi gündən bir ay ərzində bərpa edilməmiş olsun;

- müştəri uyğunluğu tədbirlərinin davamlı tətbiqi mümkün olmadıqda;
- “Müştəri” tərəfindən təqdim edilən sənədlərdə saxta məlumatlar aşkar edildikdə və ya saxta sənəd təqdim edildikdə
- Müştəri uyğunluğu tədbirlərinin davamlı tətbiqi nəticəsində uyğunsuzluqlar müəyyən edildikdə, bunun səbəblərini açıqlayan məlumatları və onları təsdiq edən sənədləri “Bank”ın tələbi bildirildiyi andan etibarən 5 (beş) iş günü ərzində yazılı surətdə “Bank”a təqdim etmədikdə;
- Azərbaycan Respublikasının hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq Müqavilə və sazişlərdən irəli gələn hallarda “Müştəri” öz pul axını, maliyyə mənbələri, həmçinin imza hüququ olan şəxslərin eyniləşdirilməsinə dair məlumatları Banka təqdim etmədikdə;
- Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.

9.11. Müqavilə ləğv edildikdə və ya xitam verildikdə “Müştəri”nin hesabı bağlanılır.

9.12. Hesab bağlandıqda hesabdakı pul vəsaitinin qalığı “Müştəri”yə verilir və ya “Müştəri”nin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən 5 (beş) iş günü ərzində başqa hesaba köçürülür.

9.13. Hesabın qalığı “Müştəri” tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olan yeni hesab “Bank”a bildirilmədikdə, həmin vəsait müvafiq müştəri kateqoriyasının bağlanmış hesablarının uçotu aparılan hesaba köçürülür və “Müştəri”yə yə mobil tətbiq (Push) və ya mobil nömrə və ya email vasitəsilə məlumat verilir. Həmin hesabda saxlanılan pul vəsaitinin hüquqi rejimi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

9.14. “Müştəri” müvafiq xidmətlərdən istifadə etdiyi tarixdə bankın rəsmi veb səhifəsində yerləşdirilmiş və hər kəsə açıq elan edilmiş şərtləri qəbul və təsdiq etdiyini bildirir.

9.15. Bu Şərtlərdə dəyişikliklər olduqda və ya ləğv edildikdə bu barədə məlumatı Bank müvafiq hərəkətin tətbiq ediləcəyi tarixdən 30 (otuz) gün əvvəl “Müştəri”yə mobil tətbiq (Push) və ya mobil nömrə və ya email vasitəsilə bildirməlidir. Bu müddətdə “Müştəri” bu dəyişikliklərlə bağlı öz etirazını bildirmədikdə, bu dəyişikliklər “Müştəri” tərəfindən qəbul olunmuş hesab edilir. Valyuta mübadiləsi məzənnələrində və Müştərinin vəziyyətini yüngülləşdirildiyi hallarda edilən dəyişikliklər bu bənd ilə müəyyən olunmuş xəbərdarlıq müddəti tətbiq edilmədən qüvvəyə minir.

## 10. Mübahisələrin Həlli

10.1. “Tərəflər” öhdəliyin icrası ilə əlaqədar onlar arasında yaranmış bütün mübahisələri qarşılıqlı razılaşma yolu ilə həll etməyə səy göstərməlidirlər.

10.2. Bu Şərtlərlə müəyyən edilmiş hallar istisna olmaqla, “Bank” “Müştəri” tərəfindən şikayətin daxil olduğu tarixdən qanunvericiliklə müəyyən edilmiş müddətlərdə müraciətə baxır və nəticəsi barədə “Müştəri”ni məlumatlandırır. Müraciətə baxılması bu müddətdə mümkün olmadığı halda həmin müddətdən gec olmayaraq şikayətə baxılması müddətinin artırılmasının səbəblərini əsaslandırmaqla şikayətə baxılması müddəti barədə “Müştəri”yə məlumat verir.

10.3. “Tərəflər” arasında yaranmış mübahisə qarşılıqlı razılaşma yolu ilə həll edilmədikdə həmin mübahisə “Tərəflər”dən hər hansı birinin müraciəti ilə Azərbaycan Respublikasının qanunvericiliyi əsasında məhkəmə qaydasında həll edilir.

## 11. Digər müddəalar

11.1. “Tərəflər” təsdiq edirlər ki, müvafiq xidmətin göstərilməsi üçün lazım olan bütün sənədlər Banka təqdim edilmişdir.
11.2. Bu Şərtlərin hər hansı bir bəndinin etibarsız hesab edilməsi şərtlərin bütövlükdə etibarsız hesab edilməsinə səbəb olmur.
11.3. Bu Şərtlər ilə tənzimlənməyən bütün məsələlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənir.

***Müraciətlərə (şikayət, ərizə və təkliflər)* baxılması *üçün əlaqə:***

***1) “Premium Bank” ASC, Ünvan: Bakı şəhəri, Akademik H.Əliyev 131 A, faks: (012) 4982042, email poçt ünvanı: complaint@premiumbank.az, veb səhifə: www.premiumbank.az, Qaynar xətti: +994 (12) 931;***
***2) Azərbaycan Respublikasının Mərkəzi Bankının ünvanı: AZ1014, Azərbaycan Respublikası, Bakı şəh., R.Behbudov küç. 90, Qaynar xətti: +994 (12) (966), +994 (12) 4935058;***